"TƏSDİQ EDİRƏM"

Azərbaycan Dövlət İqtisad

Universitetinin rektoru, professor

Ə.C.Muradov

# AZƏRBAYCAN DÖVLƏT İQTİSAD UNİVERSİTETİNDƏ (UNEC) PROFESSOR-MÜƏLLİM HEYƏTİNİN XİDMƏTİ FƏALİYYƏTİNİN QİYMƏTLƏNDİRİMƏSİNƏ ƏSASLANAN DİFFERENSİAL ƏMƏK HAQQI SİSTEMİNİN TƏTBİQİ HAQQINDA

## Q A Y D A L A R

*(əlavə və dəyişikliklərlə 29 oktyabr 2025-ci il*

*Protokol №203)*

***UNEC Elmi Şurasının 18 sentyabr 2015-ci il***

***tarixli 140 saylı qərarı ilə təsdiq edilmişdir.***

**Maddə 1: Ümumi müddəalar**

Bu Qaydaların məqsədi Azərbaycan Dövlət İqtisad Universitetində (bundan sonra - UNEC) professor-müəllim heyətinin xidməti fəaliyyətini obyektiv kriteriyalar əsasında qiymətləndirərək əmək haqqlarını differensiallaşdırmaqla onların elmi-pedaqoji fəaliyyətlərinin UNEC-in inkişaf hədəfləri istiqamətində stimullaşdırılmasını gücləndirməkdir.

Qaydalar "Azərbaycan Respublikasının Təhsil Haqqında Qanunu", "Azərbaycan Respublikasında təhsilin inkişafı üzrə Dövlət Strategiyası" və "Azərbaycan Dövlət İqtisad Universitetinin Nizamnaməsi" əsasında hazırlanmışdır.

**Maddə 2: Qaydaların tətbiq dairəsi**

Differensial əmək haqqı sistemi (bundan sonra - Sistem) əsas iş yeri UNEC-də olan tam ştat, 0,75 ştat, 0,5 ştat və əsas iş yeri UNEC olan əvəzçiliklə 0,5 ştat çalışan professor-müəllim heyətini əhatə edir.

Sistem professor-müəllim heyətinin xidməti fəaliyyətinin qiymətləndirməsi nəticəsində formalaşan reytinq siyahısına əsaslanaraq onların vəzifə maaşlarına hər il üçün UNEC Elmi Şurası tərəfindən hər tədris ilinin əvvəlində müəyyən edilən əmsallar üzrə əlavələrin edilməsini nəzərdə tutur. 2025-2026-cı tədris ili üçün bu əmsallar aşağıdakı kimi müəyyən edilmişdir:

- reytinq siyahısında 1-10-cu yerləri tutan müəllimlərin vəzifə maaşı 2 dəfə artırılır;
- reytinq siyahısında 11-30-cu yerləri tutan müəllimlərin vəzifə maaşı 1,7 dəfə artırılır;
- reytinq siyahısında 31-60-cı yerləri tutan müəllimlərin vəzifə maaşı 1,5 dəfə artırılır;
- reytinq siyahısında 61-100-cü yerləri tutan müəllimlərin vəzifə maaşı 1,2 dəfə artırılır.

Elmi Şura tərəfindən müəyyən edilən bu əmsallar UNEC-in hər il üzrə büdcəsindən bu Sistem üçün ayırdığı vəsaitlərin həcminə uyğun olaraq dəyişə bilər.

Professor-müəllim heyətinin xidməti fəaliyyəti hər tədris ili üzrə *(tədris ili tam şəkildə nəzərdə tutulur)* qiymətləndirilir və bunun əsasında onların vəzifə maaşlarına əlavələr növbəti tədris ili üçün tətbiq edilir.

Növbəti tədris ili ərzində hər hansı səbəbdən başqa pedaqoji vəzifəyə keçirilən müəllimlərin vəzifə maaşına təyin olunmuş əlavə həmin tədris ili ərzində dəyişdirilmir.

Növbəti tədris ili ərzində müəllim öz pedaqoji fəaliyyətini davam etdirdiyi, lakin tutduğu ştat vahidi azaldığı halda vəzifə maaşına təyin olunmuş əlavə ştat vahidində baş vermiş azalma nisbətində azaldılır.

Növbəti tədris ili ərzində müəllim öz pedaqoji fəaliyyətini dayandırıb başqa hər hansı vəzifəyə keçdiyi gündən vəzifə maaşına təyin olunmuş əlavə dayandırılır.

**Maddə 3: Professor-müəllim heyətinin xidməti fəaliyyətinin qiymətləndirilməsi qayda və prosedurları**

Professor-müəllim heyətinin xidməti fəaliyyətinin qiymətləndirilməsi onların UNEC-dəki fəaliyyətinin aşağıdakı iki əsas istiqaməti nəzərə alınmaqla həyata keçirilir:

- Elmi fəaliyyətlər (70%);
- Tədris fəaliyyətləri (30%);

Hər iki istiqamət üzrə müəyyən edilmiş dörd kriteriya əsasında Əlavə 1-də təqdim olunan qaydada hər bir müəllim üçün "Müəllimin İllik Xidməti Fəaliyyət Balı" (F) hesablanır.

"Müəllimn İllik Xidməti Fəaliyyət Balı" (F) hesablanarkən hər kriteriya üzrə tələb olunan ilkin ballar (A) Əlavə 2-də təqdim edilən müvafiq cədvəllər əsasında müəyyən edilir.

Kriteriya üzrə ilkin ballar hesablanarkən müəllimin həmin kriteriyaya aid olan fəaliyyətlər üzrə topladığı balları cəmlənir. Hər fəaliyyətə neçə bal verildiyi Əlavə 2-dəki cədvəllərdə göstərilmişdir.

Müəllim bir fəaliyyət üzrə bir neçə nəticə əldə etmişdirsə, onda fəaliyyət balı əldə edilən nəticələrin sayına vurulur.

Həmmüəllif şəkildə həyata keçirilmiş bütün fəaliyyətlər üzrə müvafiq ballar müəlliflər arasında bərabər bölünür. *Yalnız Web of Science və Scopus bazalarında yerləşən 2 və daha çox*

*ölkənin alimləri ilə birgə çap etdirilmiş əsərlər üzrə ballar müəlliflərin sayına bölünmür və tam şəkildə qəbul edilir. Burada iki və daha çox ölkənin alimləri ilə birgə çap edilən əsərlərdə həmmüəlliflərdən ən azı birinin UNEC-də çalışmayan xarici ölkə alimi olması zəruridir.*

Müəllimlərin Sistemə daxil etdikləri elmi əsərləri onların işlədikləri müvafiq struktur bölməsi və ya kafedra və ya institutun profilinə uyğun olmalıdır.

Müəllimlərin Sistemə daxil etdikləri bütün fəaliyyətlərdə *yalnız* UNEC-in əməkdaşı kimi çıxış etmələri zəruridir.

Əlavə 1-də təqdim edilən cədvəldəki kriteriya üzrə xüsusi çəkilər (D) universitetin prioritetlərinə uyğun olaraq kriteriyalar arasında fərqli qaydada bölüşdürülə bilər. Belə dəyişikliklər olduqda bu hər tədris ilinin əvvəlində elan olunur.

**Maddə 4: Professor-müəllim heyətinin reytinq siyahısının hazırlanması**

UNEC-də çalışan və bu sistemin şamil olunduğu bütün müəllimlərin illik xidməti fəaliyyət balları ən yüksəkdən ən aşağıya qədər sıralanmaqla Universitetdə müəllimlərin illik reytinq siyahısı tərtib olunur. "İllik xidməti fəaliyyət balı" Universitet orta göstəricisinin 50%-dən aşağı olan müəllimlərin xidməti fəaliyyəti "qeyri-qənaətbəxş" hesab edilir.

**Maddə 5: Kafedraların və fakültələrin reytinq siyahılarının hazırlanması**

UNEC-də hər kafedra üzrə bütün müəllimlərin illik xidməti fəaliyyət balları toplanaraq o kafedradakı müəllimlərin sayına bölünməklə həmin kafedranın illik xidməti fəaliyyətinin orta balı hesablanır. Kafedraların illik xidməti fəaliyyətinin orta balları ən yüksəkdən ən aşağıya qədər sırlanaraq universitet üzrə kafedraların reytinq siyahısı hazırlanır.

UNEC-də fakültələrin reytinq siyahısı da eyni qaydada hazırlanır.

**Maddə 6: Professor-müəllim Heyətinin Xidməti Fəaliyyətinin Qiymətləndirilməsi üzrə Daimi Komissiya və onun fəaliyyəti**

UNEC-də çalışan və bu sistemin şamil olunduğu hər bir müəllim cari tədris ilində elmi-pedaqoji fəaliyyətinin nəticələri haqqında məlumatları təsdiqedici sənədləri ilə birlikdə Əlavə 2-də təqdim edilən cədvəllər əsasında Universitetin rəsmi saytı üzərindən "şəxsi kabinet"lərindəki "xidməti fəaliyyət" bölməsi vasitəsilə Sistemə daxil edir.

Sistemə daxil edilən təsdiqedici sənəd kimi bir qayda olaraq rəsmi internet (WEB) səhfələri qəbul edilir. Bu zaman müəllimlər təqdim etdikləri fəaliyyətlə bağlı bütün məlumatları (fəaliyyətin baş verməsini və sistemdə nəzərdə tutulan müvafiq fəaliyyətə aid olmasını sübut edən bütün məlumatları) təsdiq edəcək rəsmi internet səhfələrini Sistemə daxil etməyə borcludurlar. Fəaliyyəti təsdiqedici rəsmi internet səhfələri olmadığı halda isə təsdiqedici sənədin surətini elektron qaydada Sistemə yükləyirlər. Hansı fəaliyyətə görə hansı təsdiqedici sənədin tələb olunduğu Əlavə 2-dəki cədvəldə göstərilmişdir.

UNEC-də yaradılmış "Professor-müəllim heyətinin Xidməti Fəaliyyətinin Qiymətləndirilməsi üzrə Daimi Komissiya" (bundan sonra Komissiya) universitetin hər bir müəlliminin təqdim etdiyi müvafiq təsdiqedici internet səhfələri və sənədləri bu Qaydalar əsasında ekspertizadan keçirdikdən sonra həmin müəllimin elmi-pedaqoji fəaliyyətinin nəticələri haqqında Sistemə daxil etdiyi məlumatları təsdiq edir. Bu zaman Komissiya zərurət olduğu halda müəllimdən təsdiqedici sənədlərin orjinalını tələb edə bilər.

Komissiya keçirdiyi ekspertizanın nəticələri əsasında müəllimin Sistemə daxil etdiyi məlumatlarda müvafiq dəqiqləşdirmələr apara bilər.

Müəllimin Sistemə daxil etdiyi təsdiqedici internet səhfələri və ya sənədlərin yetərsiz olması həmin fəaliyyətlə bağlı məlumatın təsdiq edilməməsi üçün əsasdır.

UNEC-in "İnsan resursları" şöbəsi Komissiyanın katibliyini həyata keçirir. "İnsan resursları" şöbəsinin müdiri və ya əməkdaşlarından biri komissiyanın səsvermə hüququ olmayan katibi təyin edilir.

Komissiya üzvlərinin Sistemə daxil etdikləri sənədlərin ekspertizasını UNEC rektorunun əmri ilə yaradılmış ayrıca bir komissiya həyata keçirir. UNEC-in professor-müəllim heyətindən bir nəfər həmin komissiyaya səsvermə hüququ olmayan katib təyin edilir.

Müəllim Komissiyanın qəbul etdiyi hər hansı bir qərarla razılaşmadığı təqdirdə, müvafiq şəkildə əsaslandırılmış ərizə ilə Komissiyanın Katibliyinə - "İnsan resursları" şöbəsinə - müraciət edir. Katiblik yalnız əsaslandırılmış şəkildə yazılan ərizələri qəbul edir və müvafiq qaydada baxılması üçün Komissiyanın iclaslarına çıxarır. Komissiya ərizədə qeyd edilən məsələləri ətraflı araşdırır və iddiaçının haqlı olduğunu müəyyən etdiyi təqdirdə verdiyi qərarına müvafiq düzəlişlər edir. Komissiyanın ərizədə qeyd edilən məsələləri araşdırdıqdan sonra çıxardığı qərar yekun qərar hesab edilir.

Komissiya hər tədris ilinin sonunda elmi-pedaqoji heyət, kafedra və fakültələr üzrə yekun reytinq siyahılarını təsdiq edərək, növbəti il üçün Sistemin tətbiqində əsas götürülməsi məqsədilə UNEC rektoruna təqdim edir.

**Maddə 7: Yekun müddəalar**

Bu Sistemin şamil olunduğu hər bir müəllim bir qayda olaraq cari tədris ilinə aid elmi-pedaqoji fəaliyyəti haqqında müvafiq məlumatları 1 sentyabrdan 30 iyun tarixinədək Sistemə daxil edir.Cari tədris ilinə aid məlumatların 30 iyun tarixindən sonra Sistemə yüklənməsinə yol verilmir. İyul və avqust aylarında baş verən elmi-pedaqoji fəaliyyət haqqında müvafiq məlumatların isə növbəti tədris ilinin sentyabr ayında Sistemə daxil edilməsinə icazə verilir.

Müəllimlər Sistemə daxil etdikləri təsdiqedici sənədlərin doğruluğuna görə "Azərbaycan Dövlət İqtisad Universitetində İşçilərin Universitetdaxili İntizam Qaydaları"nın müvafiq maddələrinə uyğun olaraq məsuliyyət daşıyırlar. Qəsdən saxta sənədləri Sistemə daxil edən müəllimlər haqqında müvafiq intizam tənbehi tətbiq edilir.

Bu Qaydalar UNEC Elmi Şurasının müvafiq qərarı ilə qüvvəyə minir. Qaydalara əlavə və dəyişikliklər UNEC Elmi Şurasının müvafiq qərarı ilə həyata keçirilir.

**ƏLAVƏ 1.**

## “Müəlimin İllik Xidməti Fəaliyyət Balı”nın hesablanması qaydası

| İSTİQAMƏT | KRİTERİYALAR | KRİTERİYA ÜZRƏ İLKİN BAL<br>A | PROFESSOR-MÜƏLLİM HEYƏTİNİN KRİTERİYA ÜZRƏ MAKSİMUM İLKİN BALI<br>B | KRİTERİYA ÜZRƏ İNDEKS BALI<br>C = (A/B) x 100 | KRİTERİYA ÜZRƏ XÜSUSİ ÇƏKİ<br>D | KRİTERİYA ÜZRƏ YEKUN BAL<br>E = C x D |
|---|---|---|---|---|---|---|
| Elmi fəaliyyətlər (70%) | I. Elmi nəşr və istinadlar | | | | 0,5 | |
| | II. Elmi layihə, patent və mükafatlar | | | | 0,2 | |
| Tədris fəaliyyətləri (30%) | III. Dərslər | | | | 0,1 | |
| | IV. Tədris-metodiki vəsaitlər | | | | 0,2 | |
| **Müəllimin İllik Xidməti Fəaliyyət Balı (F=kriteriya üzrə yekun balların cəmi)** | | | | | | |

**ƏLAVƏ 2**

## Kriteriyalar üzrə ilkin balların toplanması üçün cədvəllər

| I. ELMİ NƏŞR VƏ İSTİNADLAR | |
|---|---|
| **1.1.** Web of Science (AHCI, SSCI və SCI-EXP) və ya SCOPUS bazasına daxil olan elmi jurnallarda nəşr edilən əsərlər[1] | |
| **1.1.1.** Nəşr edilmiş tam mətn məqalə: | |
| **Q1** kateqoriyalı jurnalda dərc edilən | 100 bal |
| **Q2** kateqoriyalı jurnalda dərc edilən | 75 bal |
| **Q3** kateqoriyalı jurnalda dərc edilən | 50 bal |
| **Q4** kateqoriyalı jurnalda dərc edilən | 25 bal |
| **1.1.2** Qısa məqalə, təhlil, kitab təhlili, redaktor üçün qeyd, keys təqdimatı, data materialı, hesabat | 20 bal |
| **1.2.** Web of Science (Book Citation Index) və ya Scopus bazasındakı kitab, kollektiv kitab bölmələri və kollektiv kitab redaktorluğu[2] | |
| **1.2.1.** Web of Science və ya Scopus bazasında kitab müəllifliyi | 150 bal |
| **1.2.2.** Web of Science və ya Scopus bazasında kitab bölməsi müəllifliyi | 50 bal |
| **1.2.3.** Web of Science və ya Scopus bazasındaki kollektiv kitabda elmi redaktorluq | 80 bal |
| **1.2.4** Web of Science və ya Scopus bazasındaki kitabın tərcüməçiliyi[3] | 70 bal |
| **1.3.** Web of Science (CPCI-S, CPCI-SSH) və ya Scopus bazasındakı elmi məruzələr[4] | |
| **1.3.1.** Web of Science (CPCI-S, CPCI-SSH) və ya Scopus bazasında tam mətn elmi məruzə | 20 bal |
| **1.3.2.** Web of Science (CPCI-S, CPCI-SSH) və ya Scopus bazasında elmi məruzə xülasəsi | 10 bal |
| **1.4.** Scopus bazasında son *tamamlanmış* 5 ildə Hirş indeksi[5] | |

---

[1]Təsdiqedici sənəd kimi əsərin "Web of Science (AHCI, SSCI və SCI-EXP indeksləri)" və ya "Scopus" bazasında olduğunu sübut edən *həmin bazalardan* müvafiq hiperlink və ekran görüntüsü (screenshot) sistemə daxil edilir. *Komissiya, əsərlərin tədris ili ərzində Q kateqoriyasının dəyişmə ehtimalını nəzərə alaraq, sistemə daxil olan bu tipli əsərlərin ekspertizasını bir qayda olaraq 30 iyun tarixindən sonra həyata keçirir.*

[2]Təsdiqedici sənəd kimi kitabın "Web of Science (Book Citation Index)" və ya "Scopus" bazasında olduğunu sübut edən *həmin bazalardan* müvafiq hiperlink və ekran görüntüsü (screenshot) sistemə daxil edilir. Kitablarda ilk nəşr tarixi əsas götürülür. Heç bir halda kitabın təkrar nəşrləri qəbul edilmir. Kitabın cari tədris ilində nəşr edilməsi onun "Web of Science" və ya "Scopus" bazasındakı indekslənmə tarixi əsasında müəyyən edilir.

[3] "Web of Science (Book Citation Index)" və ya "Scopus" bazasındakı müxtəlif dillərdə nəşr edilmiş kitabları Azərbaycan dilinə tərcümə etmək nəzərdə tutulur. Təsdiqedici sənəd kimi tərcümə edilmiş kitabın adı, müəllifləri, tərcüməçiləri, tərcümənin elmi redaktorları, nəşr ili, nəşr tarixi (çapa imzalanma tarixi), nəşriyyatı, mündəricatı və tirajını əks etdirən səhfələrinin elektron sürətləri və kitabın orjinalının "Web of Science (Book Citation Index)" və ya "Scopus" bazasında olduğunu sübut edən *həmin bazalardan* müvafiq hiperlink və ekran görüntüsü (screenshot) qəbul edilir. Tərcümə kitablarda ilk nəşr tarixi əsas götürülür. Heç bir halda tərcümə kitabların təkrar nəşrləri qəbul edilmir. Tərcümə kitabın cari tədris ilində nəşr edilməsi onun çapa imzalanma tarixi əsasında müəyyən edilir. Tərcümə kitabların ən azı 300 tirajla nəşr edilməsi zəruridir.

[4]Təsdiqedici sənəd kimi əsərin "Web of Science (CPCI-S, CPCI-SSH indeksləri)" və ya "Scopus" bazasında olduğunu sübut edən *həmin bazalardan* müvafiq hiperlink və ekran görüntüsü (screenshot) sistemə daxil edilir. Əsərin cari tədris ilində nəşr edilməsi onun "Web of Science" və ya "Scopus" bazasındakı indekslənmə tarixi əsasında müəyyən edilir.

| | |
|---|---|
| Hirş indeksi = 1-3 | 10 bal |
| Hirş indeksi = 4-6 | 20 bal |
| Hirş indeksi = 7-9 | 30 bal |
| Hirş indeksi ≥ 10 | 40 bal |
| **II. ELMİ LAYİHƏ, PATENT VƏ MÜKAFATLAR** | |
| **2.1.** Tədqiqat layihələri[6] | |
| **2.1.1.** Layihə rəhbəri | |
| Beynəlxalq | 100 bal |
| Milli | 75 bal |
| **2.1.2.** Layihə tədqiqatçısı | |
| Beynəlxalq | 50 bal |
| Milli | 25 bal |
| **2.2.** Patentlər[7] | |
| Beynəlxalq | 100 bal |
| Milli | 50 bal |
| **2.3.** Elmi stipendiya və mükafatlar[8] | |
| **2.3.1.** Beynəlxalq post-doktorantura tədqiqat stipendiyasını qazanmaq | 100 bal |
| **2.3.2.** Milli post-doktorantura tədqiqat stipendiyasını qazanmaq | 50 bal |
| **2.3.3.** Beynəlxalq elm müsabiqələrində 1-ci yer mükafatını qazanmaq | 40 bal |
| **2.3.4.** Milli elm müsabiqələrində 1-ci yer mükafatını qazanmaq | 25 bal |
| **III. DƏRSLƏR** | |
| **3.1.** Tələbələrin müəllimdən məmnunluq anketi[9] | 25 bal |

---

[5]Təsdiqedici sənəd kimi Scopus bazasından müvafiq hiperlink və ekran görüntüsü (screenshot) sistemə daxil edilir.

[6]Mövzusu, məqsədi, predmeti, müddəti, xüsusi şərtləri və büdcəsi müəyyən edilmiş, yeni biliklər yaradılması və elmi şərhlərin verilməsi və ya texnoloji/sosial problemlərin həll edilməsi üçün elmi əsaslarla reallaşdırılan və müvafiq hesabatı müvafiq qurumlar tərəfindən qəbul edilən sifariş və ya qrant əsaslı elmi tədqiqat işləri nəzərdə tutulur. Təsdiqedici sənəd kimi layihənin qəbul edilmiş yekun hesabatının elektron surəti göstərilir. Beynəlxalq tədqiqat layihəsi dedikdə Dünya Bankı, Avropa İttifaq kimi beynəlxalq qurumların maliyyə dəstəyi əsasında həyata keçirilən elmi tədqiqat layihələri, milli tədqiqat layihəsi dedikdə isə ayrı-ayrı ölkələrin rəsmi və özəl qurumlarının maliyyə dəstəyi ilə həyata keçirilən elmi tədqiqat layihələri nəzərdə tutulur. Milli tədqiqat layihələri üçün tədqiqat nəticələrinin AHCI, SSCI, SCI-EXP və Scopus bazalarından birindəki jurnallarda məqalə kimi nəşr etdirilməsi zəruridir. Bu halda təsdiqedici sənəd kimi layihənin yekun hesabatı ilə yanaşı, məqalənin nəşr etdirilməsini təsdiq edən müvafiq hiperlinkləri də Sistemə daxil etmək tələb edilir.*Burada milli tədqiqat layihələri dedikdə UNEC daxili qrant layihələri nəzərdə tutulmur.*

[7]Ayrı-ayrı ölkələrin müvafiq rəsmi qurumları və müvafiq beynəlxalq qurumlar tərəfindən təsdiq edilmiş patentlər nəzərdə tutulur. Təsdiqedici sənəd kimi patentin verilməsini təsdiq edən müvafiq şəhadətnamənin elektron surəti qəbul edilir. Patentlər elmi ixtira və təkmilləşdirmələrlə bağlı olmalıdır. Nəşr edilmiş əsərlərə müəlliflik hüququnu təsdiq edən patentlər nəzərdə tutulmur. Patentin UNEC əməkdaşı kimi alınması mütləqdir.

[8] Təsdiqedici sənəd kimi post-doktorantura tədqiqat proqramının uğurla başa vurulmasını təsdiq edən sertifikat və ya onu əvəz edən digər təsdiqedici sənədin elektron surəti qəbul edilir. Mükafatlar üçün təsdiqedici sənəd kimi mükafatın verilməsini təsdiq edən sertifikat və ya onu əvəz edən digər təsdiqedici sənədin elektron surəti tələb olunur. Beynəlxalq stipendiya və ya mükafat dedikdə beynəlxalq qurumlar tərəfindən verilən, milli stipendiya və ya mükafat dedikdə isə ayrı-ayrı ölkələrin rəsmi və ya özəl qurumları tərəfindən verilən stipendiya və mükafatlar nəzərdə tutulur.

[9] Müəllimin ilboyu dərs dediyi hər tələbədən bu göstərici üzrə əldə etdiyi balların toplanaraq məmnunluq anketini dolduran tələbələrin sayına bölünməsi yolu ilə əldə edilir. Anketin nümunəsi Əlavə 3-də təqdim edilmişdir. Bu göstərici üzrə bal tələbələrin doldurduqları anketlər əsasında Sistem tərəfindən avtomatik hesablanır.

| IV. TƏDRİS-METODİKİ VƏSAİTLƏR[10] | |
|---|---|
| **4.1.** Dərsliklərin hazırlanması | 100 bal |
| **4.2.** Nümunəvi dərsliklərin tərcüməsi[11] | 100 bal |
| **4.3.** Nümunəvi dərsliklərinin tərcüməsində redaktorluq | 50 bal |

[10]Təsdiqedici sənəd kimi tədris-metodiki vəsaitin adı, müəllifləri, tərcüməçiləri, redaktoru, nəşr ili, nəşr tarixi (çapa imzalanma tarixi), qrifi (və ya müvafiq şuranın qərarı), nəşriyyatı, mündəricatı və tirajını əks etdirən səhfələrinin elektron sürəti qəbul edilir. Tədris-metodiki vəsaitin ilk nəşr tarixi əsas götürülür. Heç bir halda tədris-metodiki vəsaitin təkrar nəşrləri qəbul edilmir. Tədris-metodiki vəsaitin cari tədris ilində nəşr edilməsi onun çapa imzalanma tarixi əsasında müəyyən edilir. *Burada dərsliklərin hazırlanması dedikdə, yalnız UNEC-də hazırlanan və UNEC-in müvafiq strukturunun tövsiyə qərarı ilə nəşr edilən dərsliklər nəzərdə tutulur.*

[11] Nümunəvi dərslik dedikdə, WASS-Sense təşkilatının reytinq siyahısında A və B kateqoriyalı nəşriyyatlar tərəfindən nəşr edilmiş dərsliklər nəzərdə tutulur. *Burada yalnız müəlliflik hüquqlarının qorunması ilə bağlı müvafiq icazələr alınmaqla tərcümə edilən və nəşri həyata keçirilən dərsliklər qəbul edilir.* Reytinq siyahısı üçün bax: https://sense.nl/wp-content/uploads/2021/03/WASS-SENSE_book_publishers_list_2020.xlsx

ƏLAVƏ 3

**Tələbələrin müəllimdən məmnunluq anketi**



# TƏLƏBƏLƏRİN MÜƏLLİMDƏN MƏMNUNLUQ
# A N K E T İ

*Sualları cavablandırarkən layiq gördüyünüz xananı* ***1-dən 10-dək rəqəmlə*** *qeyd edin. Hər bir sual üzrə maksimal bal* ***10*** *olaraq qiymətləndirilir.*

**Cinsiniz:** ______________________

**Fakültə:** ______________________

**Fənn:** ______________________

**Müəllim:** ______________________

| | **Suallar** | **Qiymət** |
|---|---|---|
| 1 | Müəllim tələbələrlə ünsiyyəti qarşılıqlı hörmət və ehtiram əsasında qurur | |
| 2 | Müəllim dərsi səlis və aydın şəkildə izah edir | |
| 3 | Müəllim interaktiv metodlardan (keys, prezentasiya, sinkveyn, skeçlər v.s) istifadə edir | |
| 4 | Müəllimin təqdim etdiyi dərs materialları (mühazirə mətni, prezentasiya və.s) yenidir | |
| 5 | Müəllim tələbələrə dərsdən kənar vaxtlarda da köməklik edir | |
| 6 | Müəllim tələbələrin dərsdə aktiv iştirakına şərait yaradır | |
| 7 | Müəllimin verdiyi tapşırıqların, sərbəst işlərin mənə faydalı olduğunu düşünürəm | |
| 8 | Kollokvium və imtahanlardan müvəffəq qiymət almaqda müəllimin keçdiyi dərsin əhəmiyyətli olduğuna inanıram | |
| 9 | Fənni tədris edən müəllim tərəfindən I tədris həftəsində sillabus təqdim edildi və ona aid bütün məlumatlar tam izah edildi | |
| 10 | Müəllimi digər tələbələrə tövsiyyə edirəm | |

***Arzu və təkliflərinizi aşağıda qeyd edə bilərsiniz:***______________________

______________________

______________________

______________________